2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Fuad Cavadovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 sentyabr 2024-cü il tarixli 78 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 13 sentyabr 2024-cü il

Mən, ekspert qrupunun üzvü Fuad Cavadov 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə 120 saylı Cəbrayıl – Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd İsmayılov Sərdar Əbülfət oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 sentyabr 2024-cü il tarixli 78 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m**:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü kimi tərəfimdən araşdırılmışdır.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, ərizəçi araşdırmada və Komissiyanın iclasında iştirak etməkdən imtina etmişdir.

Namizəd İsmayılov Sərdar Əbülfət oğlu dairə üzrə 83 – 84 saylı məntəqələrinin Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifələrində yerləşdirilmədiyini, həmçinin 80 – 81 saylı məntəqələr üzrə kimlərin səs verdiyi barədə məlumatının olmamasını əsas gətirərək 120 saylı Cəbrayıl – Qubadlı seçki dairəsi dairə seçki komissiyasının 08 sentyabr 2024-cü il tarixli 30/89 saylı qərarının ləğv edilməsini xahiş etmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, 80 və 81 saylı seçki məntəqələri Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Seçki Məcəlləsinin 35.2-ci və 47.2-ci maddələrində nəzərdə tutulmuş qaydada yaradılmışdır.

Müəyyən edilmişdir ki, seçki dairəsi üzrə 83 və 84 saylı seçki məntəqələri 120 saylı Cəbrayıl – Qubadlı seçki dairəsi dairə seçki komissiyasının 13 avqust 1024-cü il tarixli 25/75 saylı qərarı ilə Seçki Məcəlləsinin 35.5-ci maddəsinin tələblərinə uyğun yaradılmış, bu barədə dairə seçki komissiyasının qərarı müvafiq qaydada dərc edilərək ictimailəşdirilmişdir

Beləliklə, 120 saylı Cəbrayıl – Qubadlı seçki dairəsinin dairə seçki komissiyası S.Ə.İsmayılovun müraciətinin təmin edilməməsi ilə bağlı düzgün nəticəyə gəldiyindən dairə seçki komissiyasının 8 sentyabr 2024-cü il tarixli 30/89 saylı qərarının ləğv edilməsi üçün hüquqi əsas yaranmamışdır.

Bununla da, S.Ə.İsmayılovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 sentyabr 2024-cü il tarixli 78 saylı müraciəti təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Seçki Məcəlləsinin 112-ci, 112.1-ci maddələrinə əsasən **r ə y ə  g ə l d i m:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 120 saylı Cəbrayıl – Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Sərdar Əbülfət oğlu İsmayılovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 sentyabr 2024-cü il tarixli 78 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 08 sentyabr 2024-cü il tarixli 30/89 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Fuad Cavadov